**Tağıyeva Təranə Muradəli**
*tarix elmləri namizədi, dosent*
*Münasibətlər və iqtisadiyyat fakültəsi*
*Bakı Dövlət Universitetinin Beynəlxalq*
**Тагиева Тарана Мурадали**
*кандидат исторических наук, доцент*
*Факультета международных отношений и экономики*
*Бакинский государственный университет*



# GÜCÜ MÜƏYYƏNLƏŞDİRƏN AMİLLƏR

# ФАКТОРЫ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ

***Xülasə.*** *Beynəlxalq münasibətlərdi güc amili dünya siyasətində özünəməxsus yer tutmaqdadır. Bu xüsusiyyətin araşdırılması məqalənin əsas məqsədi kimi seçilmişdir.*

*Məqalədə dövlətlərin xarici siyasət məsələlərində gücü müəyyənləşdirən amillər nəzərdən keçirilir, beynəlxalq münasibətlər nəzəriyyəsinin siyasi realizm, liberalizm və marksizm məktəblərinin nümayəndələrinin fikirləri şərh edilir.*

***Açar sözlər:*** *beynəlxalq münasibətlər, siyasət, liberalizm, xarici siyasət.*

***Аннотация.*** *Сила международных отношений занимает особое место в мировой политике. Эта функция была выбрана в качестве основной цели статьи.*

*В статье рассматриваются факторы, определяющие сильные стороны государств во внешней политике, и интерпретируются взгляды представителей теории международных отношений, политического реализма, либерализма и марксизма.*

***Ключевые слова:*** *международные отношения, политика, либерализм, внешняя политика.*

Qeyd etmək lazımdır ki, beynəlxalq münasibətlər güc uğrunda mübarizə kimi xarakterizə olunmaqdadır. Sistem daxili münasibətləri bu prizmadan dəyərləndirdikdə haqlı olaraq bir sual ortaya çıxmaqdadır.

Realistlər bu müxtəlifliyi dövlətlərin gücünü müəyyənləşdirən amillərlə bağlayırlar. Dövlət yalnız potensialında olan amilləri düzgün effektiv istifadə etməklə beynəlxalq münasibətlərdə aparıcı ünsürə çevirə bilər.

Gücü müəyyən edən amillərdən danışarkən biz bacardığımız qədər geniş şəkildə bu amilləri dəyərləndirməliyik. Bu çeşidlilik bir şəkildə dövlətin hansı miqyasda qüdrətə sahib olduğuna bir işarədir.

Realist, liberal və marksist məktəblər amilləri sadalarkən müxtəlif cəhətlərdən bu amillərin dəyərləndirilməsinə üstünlük verməkdədir.

Biz də bu yanaşmadan uzaqlaşmayaraq determinantları dəyərləndirməyə çalşıcağıq.

Amerikalı alim Spaykman gücü müəyyən edən 10 amili sadalamaqdadır: 1) ərazinin sahəsi; 2) əhali; 3) sosial inteqrasiyanın səviyyəsi; 4) sərhədlərin xarakteri; 5) maliyə; 6) xammal resursları; 7) etnik tərkib; 8) siyasi stabillik; 9) iqtisadi və texnoloji inkişaf; 10) milli ruh.

Alman müəllifi R. Ştanymes 8 amildən söz açmaqda: 1) əhali; 2) ərazinin sahəsi; 3) siyasi institutlar; 4) idarəçiliyin keyfiyyətliyi; 5) millətin həmrəyliyi; 6) sülhpərvərliyi; 7) mənəvi keyfiyyətlər; 8) təbii resurslar.

Digər alman alimi Q. Fişer güc amillərini 3 kateqoriyaya bölmüşdür: (Tayyar, 1996:139).

1) Siyasi faktorlar: coğafi yerləşmə, sahəsi, əhali, mədəni səviyyə, sərhədlərin xarakteri və qonşu dövlətlərlə münasibətlər;

2) Psixoloji faktorlar: iqtisai potensial, əhalinin uyğunlaşma səviyyəsi;

3) İqtisadi faktorlar: mineralların ehtiyatı, istehsalın təşkili, texnologiyaların səviyyəsi, maliyyə qüdrəti, ticari inkişaf səviyyəsi.

R. Aron isə 3 elementi qeyd edir: (Aron, 2000:101) 1) məkan; 2) bilik və resurslar; 3) hərəkatlara meylilik.

Aron məkandan danışarkən siyasi birliklərin tutduğu məkanı qeyd edirdi. Bilik və resurslar Arona görə onları silaha çevrilir, əhalini isə potensial əsgərlərə. Birgəlik isə özündə ordunun təşkili, intizamı, vətəndaş və hərbilər keyfiyyəti, səviyyəsi şərtləndirir.

Bu faktorlar Arona görə zaman və şəraitdən asılı olmayaraq bütün dövlətlər üçün xasdır. Ona görə bu üç element bütün səviyyələrdə analiz üçün mümkün sayıla bilər kiçik hərbi biliklərdən böyük ordularadək.

Bəzi faktorlar dövlətin müdafiə qüdrətinə təsir göstərir. Məsələn, çaylar, səhralar. Strateji və diplomatik bacarıq isə 3-cü terminlər şərtlənir.

Özünün "Millətlər arasında sülh və müharibə" əsərində Aron amilləri tarixi və sosioloji baxımdan öyrənilməsinin tərəfdarı kimi çıxış edir. O, əsas olaraq gücü müəyyən edən amillərdən danışarkən sülh və müharibə dövrlərində istifadə mümkünlüyündən söz açırdı. Adından da göründüyü kimi kitab münasibətləri bu iki zaman kəsiyi içərisində dəyərləndirməkdədir. Baxmayaraq ki, öz baxışlarında R. Aron realistlərə yaxın fikirlər söyləyirdi, onu heç də bir realist məktəbinin nümayəndəsi kimi qiymətləndirmək düzgün olmazdı.

R. Arona görə sülh dövrün güc amilləri öz iradəsini dəyərlərinə bağlamaq, legitim olaraq qəbul edilən vasitələrdən istifadə etmək kimi qiymətləndirilməlidir. Müharibə dövrü isə əsas olaraq hərbi güc və onun istifadə mümkünlüyündən ibarətdir (Morgentau, 1954:112).

Bu iki dövrə münasibətdə güc amillərin və onların istifadə mümkünlüyü çox gözəl tarixi faktlardan izah edilməsi Aronun nə qədər böyük nəzəriyyəçi olduğuna bir sübutdur.

Sülh dövründə zor istifadəsi Aron baxışlarının bir şaxəsini təşkil edir. O, zorakılığın 2 növünü göstərirdi. Simvolik və yanıldıcı. Ona görə simvolik zorakılıq XIX əsrə aiddir. XX əsr yanıldıcı zorakılıqda xarakterizə olunur. Ümumiyyətlə, qeyd etməliyik ki, R. Aronun bu sahənin inkişafındakı rolu danılmazdır.

Araşdırmalarıyla güc konsepsiyasının inkişafında böyük xidmətləri olmuş H. Mongentaunun baxışları çox mühüm əhəmiyyət kəsb etməkdədir. Beynəlxalq münasibətləri güc münasibətləri kimi qiymətləndirən Morgentau özünün "Politics among Nations" kitabında bu mövzunu daha dərindən işləmişdir.

Realizm məktəbinin atalarından hesab edilən Morgentau gücü müəyyən edən amilləri dərindən araşdırmış və bu sahədə irəliləyişlərə səbəb olmuşdur.

Beynəlxalq münasibətlər nəzəriyyəsində güc konsepsiyasına XX əsrə yeni nəfəs verən alim, gücü həm məqsəd həm də vasitə prizmasından dəyərləndirməsi fikrini irəli sürmüşdür. Onun mühüm töhfələrindən biri də güc uğrunda mübarizə anlayışına insanların şüuru uğrunda mübarizə baxışını irəli sürməsidir. Ümumiyyətlə, qeyd etməliyik ki, Morgentau 9 faktoru müəyyən edici faktor kimi göstərmişdir: 1) coğrafiya; 2) təbii resurslar; 3) istehsal; 4) həri hazırlıq dövriyyəsi; 5) əhali 6) milli xusisiyyət; 7) diplomatiya; 8) hakimyyət; 9) National Morale; Milli Ruh.

Göründüyü kimi, Morgentaunun baxışları R. Aronda kateqoriyalaşmış halda qarşımıza çıxmış idi.

Qeyd etməliyik ki, bu cür bölgü əksər alimlər tərəfindən optimal bir bölgü kimi qiymətlədirilir. Bəzi araşdırmaçılar daha da irəli gedərək faktorları maddi və insani qruplara bölmüşlər (K. Mingst, 1999:71).

Fikrimizcə, bu amilləri ayrı-ayrılıqda dəyərlədirmək güc konsepsiyası baxımından çox önəmli olardı.

1) Coğrafiya

Qeyd etməliyik ki, coğrafiya anlayışı ilə biz coğrafi yerləşmə və ərazinin sahəsini baha düşürük. Bu amili realistlər ən stabil faktor kimi dəyərləndirirlər. Qeyd etmək lazımdır ki, bu faktor 2 əsr bundan öncəki kimi öz önəmliliyini qorumur. Lakin ABŞ-ın timsalında söyləmək doğru olardı ki, bu element öz aktuallığını qorumaqdadır. Belə ki, başqa kontenentlərdən su ilə minlərcə kilometr aralı yerləşən ABŞ bu üstünlükdən avtomatik olaraq istifadə etməkdədir (Morgentau, 1954:114). Eyni şəkildə İngiltərənin Lamanş boğazıyla Avropadan ayrılması təxminən 300 il Avropa güclər balansı sistemində balanslayıcı dövlət rolu uğurla sürdürməsini yüngülləşdirmişdir. Coseph Frankel "İnternational Relations in Changing World" əsərində göstərir ki, ölkənin geniş əraziyə sahib olması, yetərli iqtisadi və texnoloji inkişafa nail olmadıqdan sonra dövlət üçün müəyyən problemlər yarada bilər (Frankel Coseph, 1979:259). Bununla yanaşı o göstərir ki, kommunikasiya xətlərində irəliləyiş, texnoloji inkişaf müasir dövrdə ərazi faktorunun önəmini azaltmışdır. Realist məktəbinin nümayəndələrindən olan Ştraus-Hupe isə coğrafiya faktoruna daha çox önəm verməkdədir. Ona görə bu faktor müasir dünyamızda siyasi davranışın müəyyənləşməsində özünəməxsus bir yeri olduğunu qeyd edir.

Yenidən Morgentauya qayıdıb misallarla bu faktoru dəyərləndirmək istərdik. Atom silahının istifadəsi çoxlarına görə ərazi faktorunun rolunu azaltmışdır. Lakin Morgentau doğru qeyd edirdi ki, mümkün kürə müharibəsi şəraitində kvazikontinental əraziyə sahib olan ABŞ, Rusiya və Çin, İngiltərə və Fransa ilə müqayisədə daha az zərərə məruz qala bilərlər.

XX əsrin başlanğıcında coğrafiyanın önəmliliyi barədə iki fərqli fikir realist ənənəsinə sadiq olaraq yaranmışdı. 1890 da Alfred Mexen dənizləri nəzarətin önəmliliyindən söz açmışdı. O belə bir qənaətə gəlmişdir ki, okean çıxışlarını kontrol edən dövlət dünyaya nəzarət etməkdədir. Mexenə görə torpaq üzərində suverenlik dəniz yollar üzərində nəzarətdən daha az önəmlidir (Duqin, 1999:52).

1904 də ingilis alimi Holford Makkinder buna əks bir ideya irəli sürmüşdür. Belə ki, ona görə ən güclü dövlət Avrasiya coğrafi "hartlandını" nəzarət edən dövlətdir. O yazırdı ki, Şərqi Avropanı kontrol edən, Avrasiyanı nəzarət edən, Avrasiyaya nəzarət edənsə, dünyaya nəzarət edir. Bu iki baxış da empirik qanunauyğunluğa malikdir.

XVIII və XIX əsrlərdə Britaniya gücünü dənizlərdə dominantlıq müəyyən edirdi. İtaliyanı coğrafi yerləşməsi bütün tarixi boyu siyasi və hərbi stratigyaların müəyyən edilməsində hər zaman stabil faktor olaraq qalmaqda idi. Müasir dünyamızda elmin inkişafı nəticəsində coğrafi faktorun önəmliliyi azalmaqdadır. Lakin ABŞ-ın misalında

görürük ki, dövrümüzdə su ilə kontinentlərdən ayrılmaq güc amillərinə təsir göstərməkdədir. Atom müharibəsi mümkünlüyü ərazi ölçüsünün önəmini artırmışdı. Lakin doğru olaraq qeyd edirlər ki, nüvə müharibəsində qalib və ya məğlub olmur (Mingst, 1999:71).

2) Təbii ehtiyatlar

Gücə təsir göstərən digər mühüm və stabil faktor təbii ehtiyatlar faktorudur.

Bu faktoru 2 qrupa ayırmışıq:

a) ərzaq: özünün ərzaq ehtiyatını ödəyən ölkə bu ehtiyacı ödəyə bilməyədən önəmli üstünlüyə malikdir. Bunun nəticəsidir ki, Böyük Britaniya yalnız 30% öz ərzaq ehtiyacını qarşılığında I dünya müharibələri gedişatında öz sahillərini açıq saxlamasına səbəb olmuşdur.

Almaniya da Britaniyanın üzləşdiyi bir problemlə kiçik miqyasda üzləşmişdir. Bu məqsəddəndir ki, müharibədə qalib gəlmək üçün edilən sürətli qələbənin tərəfdarı idilər. Bitmiş ərzaq ehtiyatlar əlbəttə ki, daha böyük miqyasda hərbi əməliyyatların aparılmasının qarşısını alacaqdır.

ABŞ misalında görürük ki, öz ərzaq ehtiyacını qarşılayan dövlət, daha dolğun xarici siyasət yürütmək qabiliyyətindədir.

Bəzi tarixçilər qeyd edirlər ki, İspaniyanın dünya siyasətindən uzaqlaşması heç də 1988 də Arnadanın İngilislər tərəfindən məğlub edilməsi deyil. Onların fikrincə, əsas səbəb, XVII və XVIII illərdə İspaniyanın yalnış torpaq suvarmaq siyasəti olunmuşdu. Məntiqi nəticəsi olaraq da İspaniyanın şimal və mərkəz əkin sahələri virtual səhralara çevrilmişdi (Morgentau, 1954:116).

b) Xammal:

Bu faktor müharibələrin texniki cəhətdən innovasiyaya uğramasıyla özünü büruzə verir. Xammal formasında təbii ehtiyatların önəmliliyi əsas olaraq tarixin müəyyən bir vaxtında istifadə edilən müharibə texnologiyasından çox asılıdır (İnternational Affairs jurn., 1998:135).

Sənaye inqilabından sonra xammal ehtiyatları üzərində nəzarət dövlətin gücünü müəyyən etməkdə çox önəmli amilə çevirirdi. Heç də təsadüfi deyildir ki, soyuq müharibənin 2 aparıcı dövləti geniş xammal ehtiyatlarına sahib olmaqda idilər. Hərbi texnologiyaların önəmləri artdıqca bəzi xammal növlərinin önəmliyi də artmışdır.

I Dünya müharibəsindən sonra enerji ehtiyatı kimi neftin önəmliliyi çox artmışdır. Klimanso öz çıxışlarının birində qeyd edirdi ki, bir damcı neft əsgərlərinin qanının damcısından daha önəmlidir. Bunun üçündür ki, Yaxın Şərq, Qafqaz neft ehtiyatlar üzündən daha mühüm geostrateji əhəmiyyətə malikdirlər.

Heç təsadüfi deyil ki, son zamanlar dünyada baş verən olaylar hidrokorbogen ehtiyatlarına sahib olma uğrunda baş verməkdədir (www.ntvmsnbc.com).

Son zamanlarda uran ehiyatları üzərində nəzarət dövlətin gücünün müəyyənləşdirilməsində vacib faktor kimi çıxış etməkdədir. Urandan atom enerjisinin alınması və onun hərbi məqsədlər üçün istifadəsi güc amilinə münasibətdə dövlətlər ierarxiyasının formalaşmasında mühüm faktora çevrildi.

Sənayenin həcmi

Uran misalı başqa bir faktorun önəmini və sənayenin həcmi faktorunun önəmini gözlətməyə kömək edir. Baxmayaraq, Konqo Respublikası böyük uran ehtiyatlarına malikdir, bu onun başqa ölkələrlə münasibətdə bir güc ünsürü kimi istifadə etməsindən yararlana bilmir. Səbəb bu uran ehtiyatlarını emal edə biləcək sənayeyə Konqonun sahib olmamasıdır. Digər tərəfdən isə ABŞ, Rusiya, Çexiya üçün uranın istifadəsi mühüm müsbət nəticələr doğurmuşdur (Morgentau, 1954:121).

Hindistan əhəmiyyətli dərəcədə dəmir ehtiyatlarına malikdir, lakin bu zəngin ehtiyatlara baxmayaraq dövlətlər ierarxiyasında ilk onluqda yer almamaqdadır. Müasir dövr göstərir ki, dövlətlər hasilatdan daha çox emala önəm verməlidir.

Sənayenin önəminin artması həm də böyük və kiçik dövlətlər arasında fərqi daha da böyükdür.

Müasir dövrdən super güc kateqoriyasının gözdən keçirərkən yalnız ABŞ-ın bu formata uyğun gəldiyini görməkdəyik. Tək atom silahına sahib olma, və ya əhali super güc kateqoriyasını formalaşdırmır. Yalnız iri həcmli sənaye bura əlavə olunduqda düzgün anlayış ortaya çıxmaqdadır.

Hərbi hazırlıq səviyyəsi

Morgentau düzgün olaraq qeyd edir ki, güc amilinə öz aktual önəmliliyini çatdıran dövlətin hərbi hazırlıq səviyyəsidir. Hərbi hazırlıq özü də lazımi hərbi establişmentin varlığını şərtləndirir. Texnoloi yeniləşmə, başçılıq hərbi qüvvələrin keyfiyyət və kəmiyyət göstəricilər bu amilin formalaşmasında mühüm əhəmiyyətə malikdirlər. Beynəlxalq münasibətlərdə ən son baş vurulan yol bu olduğundan bir dövlətin gücünü hesablayarkən ən çox üzərində durulan hərbi güc olmaqdadır (Review of international Relations jurn., 1999:220).

Hərbi hazırlıq səviyyəsindən danışarkən hərbi rəhbərlik amilini xüsusi vurğulamalıyıq. Bu amil hər zaman dövlətin gücünün müəyyənləşməsində əhəmiyyətli dərəcədə önəmlidir.

Dövlətin hərbi müdafiəsinin düzgün tərkibi, coğrafi xüsusiyyətlərdən irəli gələn hərbi strategiyaya, taktikaların, döyüş vasitələrinin düzgün seçimi, hərbi qüvvələrin üstün ruh yüksəkliyi güc konteksti daxilində hərbi hazırlıq səviyyəsi ilə doğrudan bağlıdır.

Əhali

Bu amildən danışarkən qeyd etməliyik ki, əhalinin kəmiyyət və keyfiyyət göstəriciləri ayrı-ayrı gözdən keçirilməlidir.

Çin, Hindistan, Rusiya kimi böyük əhaliyə sahib olma, dövlətlərə avtomatik üstünlük qazandırmaqdadır. Lakin bu üstünlük absolut xarakter daşımır. Elə olsaydı onda Çin dünyanın 1№ -li gücü sayılardı (Japan Review of Internatioanl Repations journ., 2002:125). Morgentau doğru olaraq qeyd edirdi ki, böyük əhaliyə malik olmadan dövlətlər öz maraqlarını həyata keçirərkən heç də böyük nüfuza malik ola bilməzlər. Bunun nəticəsidir ki, imperialist dövlətlər hər

zaman əhali artımını stimullaşdırmaya çalışmaqdadırlar. Əgər 1824-cü ildə ABŞ-ın əhalisi 11 milyon idisə, XX əsrin son illərində bu rəqəm 250 milyona çatmışdır.

Son zamanların mühüm nəticələrindən biri də əhalinin dövlətin gücünə mənfi təsir göstərməsi oldu. Belə ki, alimlər hesablamışlar ki, Konqo respublikasında hər 17 ildən bir əhalinin sayı 2 dəfə artmaqdadır (www.hürriyetim.com.tv). Hindistan, Misir, Çin demokratik siyasət yürütməklə əhalinin sayını balanslaşdırmağa çalışırlar.

Digər tərəfdən bu gün Avropa ölkələri, demokratik böhranla üzləşməkdədirlər. Araşdırmalar göstərdi ki, gələcək 20 ildə Almaniya, Nederland kimi ölkələrdə yerli əhalinin say ¼ azalacaqdır.

Milli xüsusiyyət

Bir keyfiyyət göstəricisi olan bu amil əsas olaraq intellektual və xarakteristik özəlliklərin cəmindən ibarətdir. Bu ünsür bir millətin digərindən fərqli olmasının göstəricisidir.

Heç təəccüblü deyil ki, Kant və Hegel Alman fəlsəfi ənənəsinin tipik nümayəndələri olduğu kimi Dekart Fransanın, Con Lokk və Eduard Börq ingilis siyasi düşüncənin nümayəndələridirlər. Bu sadalıdığımız örnəklər heç şübhəsiz ki, abstrakt və siyasiləşmiş səviyyədə millətlərin hər növ düşüncə və hərəkət səviyyəsində fundamental intellektual fərqliliklərin bir göstəricisidir (Morgentau, 1972:81).

Rusların inadkarlığı, amerikanların şəxsi təşəbbüskarlığı, almanların intizamlılığı — fərd və dövlətlərin münasibətlərində özlərini göstərən keyfiyyət fərqlilikləridirlər. Tarix boyu xarici siyasət imperativlərində rusların yanaşması İngilislərin yanaşmasından çox fərqli olmuşdur. Və tam əksi. Qeyd etməliyik ki, milli xüsusiyyət amilini bir dəyərlər toplusu kimi qiymətləndirə bilərik. Dünya görüşü adlandırsaq da yanlış olmaz. Bu kontekstə milli xüsusiyyətin güclü ikili münasibəti çox önəmlidir. Həm sülh həm də müharibə zamanı qərar qəbul mexanizmi tam olaraq öz "milli"liyi ilə seçilməkdədir. Buradan aydın olmaqdadır ki, milli maraq adlandırdığımız anlayış hər millətin dəyərlər sisteminin bir məntiqi nəticəsi kimi ortaya çıxmaqdadır.

Milli ruh (national Morale)

Milli güc üzərində təsiri baxımından digər faktorlar qədər önəmli bir başqa amil milli ruhdur. Bu amili, bir millətin öz hökumətinin xarici siyasətini sülh və müharibədə dəstəkləməkdəki qərarlılıq dərəcəsi kimi qiymətləndirməkdədir. Bu amilin varlığı və ya yoxluğu, hər şeydən çox böhran anlarında və ya bir millətin yaşamıyla əlaqədar əhəmiyyətli qərarların alındığı anlarda önəm qazanmaqdadır. Misallarla, amilin önəmliliyini sadalasaq fikrimcə, düzgün olardı.

Belə ki, Çində Mao Dzedonun hakimiyyəti dövrü çox güclü bir dövr kimi qiymətləndirilir. Alimlərin fikrincə, bu ilk öncə, sosial birgəlik və kommunizm partiyasının əhali tərəfindən dəstəklənməsi olmuşdur (K. Mingst, 1999:67).

1967 və 1973-cü il müharibələrində İsrail dövlətinin qələbəsində vətəndaşların bu əməliyyatları dəstəkləməsi və daha önəmlimi ölümə hazır olması idi.

Morgentau qeyd edir ki, milli ruh səviyyəsi azaldıqca, ən çox bu hal demokratik quruluşa sahib olan dövlətlərdə özünü göstərir, dövlət gücü də əhəmiyyətli dərəcədə azalır (Paskal Lord, 2001:104).

Diplomatiyanın keyfiyyəti, səviyyəsi

Morgentauya görə bir dövlətin gücünü meydana gətirən amillər arasında istiqrarsız da olsa ən vaciblisi diplomatiyanın səviyyəsidir.

Əgər milli ruh gücün ruhudursa, diplomatiya isə milli gücün beyni kimi qiymətləndirilməlidir (Morgentau, 1954:140). Dövlətin güc potensiyalından düzgün istifadə etməklə diplomatiya onun səviyyəsini düşündüyümüzdən də daha çox artıra bilər.

ABŞ ikinci dünya müharibələri arasında böyük gücə sahib olmasına baxmayaraq beynəlxalq münasibətlər çox kiçik rol oynamaqda idi. Səbəbi isə xarici siyasətin beynəlxalq problemlərə münasibətlərdə dövlətin gücünü tam əks etdirə bilməməsi idi (Bejinski, 1999:250).

II Dünya müharibəsindən sonra isə ABŞ öz diplomatiyası ilə "bütün cəbhə"lərdə hücuma başladı. Və günümüzə çatan yeganə fövqəldövlət statusunu qazandı.

Hakimiyyətin səviyyəsi

Xarici siyasət nə qədər mükəmməl olsa da, nə qədər səhvsiz hərəkət etsə də, nə qədər geniş potensiala malik olsa da, fundamentində yaxşı bir idarəetmə sistemi keyfiyyətli bir hökumət olmadığı halda heç bir şeyə yaramamaqdadır.

Hökumətin səmərəliliyi 3 şeydən çox asılıdır (Morgentau, 1954:145):

1) material və insan ehtiyatları əsasında düzgün balansın qurulması;

2) ictimai dəstəyə sahib olması;

3) ehtiyatlar arasında balansa meyli olmaq.

Hakimiyyət 2 fərqli intellektual əməliyyatla həyata keçirilməlidir. Birincisi, o özünün məqsədlərini seçməlidir. İkincisi isə gücü ilə uyğunluq təşkil edən xarici siyasət metodlarını uyğunlaşmalıdır. Sahib olduğu gücdən daha aşağı səviyyəli bir xarici siyasət yürüdən dövlət beylənxalq sistemdə layiq olduğu yeri ala bilməməkdədirlər. Bəzən isə dövlətlər öz gücündən daha artıq səviyyədə xarici siyasət yürütməkdədirlər. Bu böyük fəlakətlərə getirməkdədir. Polşanın dünya müharibələri arasındakı dönəmdə yürütdüyü siyasət buna çox gözəl misal ola bilər (Aron, 2000:103).

Dövlət üçün əsas məqsəd məhdud resursları şəraitində, düzgün xarici siyasət aparmaqla öz milli maraqlarını həyata keçirməsidir (Paskal, 2001:105).

Liderlik

Gücü müəyyənləşdirən faktorlardan biri olub, liberal məktəb tərəfindən daha çox önəm verilməkdədir. Maharfma Qandi, Şarl de Qol, Franklin, Ruzvelt, Bismark, Gorell, H. Əliyev kimi xarizmatik şəxsiyyət şəxsi təşəbbüsü ələ keçirməklə dövlətin güc potensialını yüksəltmişdilər.

**Ədəbiyyat**

1. Aron R. Millətlər arasında sülh və müharibə. Moskva, 2000.
2. Tayyar Arı. Uluslararası ilişkilere giriş. İstanbul, 1996.
3. Бежински З. Великая шахматная доска. Москва, 1999.
4. Дугин А. Геополитика. Москва, 1999.
5. International Affairs jurnalı, № 4, 1998.
6. Internet: www.ntvmsnbc.com
7. İnternet: www.hürriyertim.com.tv
8. Frankel Coseph. International relations in Changing World. Oxford, 1979.
9. Japan Review of international Relations jurnalı, № 1, 2002.
10. Migst K. Essaintials of İnternatioanl Relations. New Jersey, 1999.
11. Morgentau H. Politics among Nations. New York, 1954.
12. Morgentau. Science: Serrani or Master. New York, 1972.
13. Paskal Lord. Geopolitika. Bakı, 2001.
14. Review of international Relations jurnalı, New York, 1999.
15. World Politics jurnalı, VI, 1998.